İQLİM İLƏ ƏLAQƏLİ KORPORATİV İDARƏETMƏ

(CLIMATE CORPORATE GOVERNANCE - CCG)

İqlim dəyişikliyinin iqtisadi və kommersiya fəaliyyətinə potensial təsirləri, eləcə də maliyyə və biznes qərarlarının qəbulunda bu risklərin nəzərə alınmasının zəruriliyi ilə bağlı məlumatlılıq artmaqdadır. Şirkətlər öz biznes əməliyyatlarını aşağı karbonlu yollarla (“LCP”) və iqlimə davamlı yollarla (“CRP”) həyata keçirməyə dair Maliyyə Sabitliyi Şurasının İqlimlə bağlı Maliyyə Açıqlamaları üzrə İşçi Qrupu (“TCFD”), Maliyyə Sisteminin Yaşıllaşdırılması Şəbəkəsi (“NGFS”), Aİ-nin Davamlı Maliyyə Fəaliyyət Planı və bir sıra milli tənzimləyici və nəzarət orqanları tərəfindən bu istiqamətdə hazırlanmış qaydalarına və təlimatlarına uyğun olaraq yeniləməlidirlər.

Gəmiçilik sektoru iqlim şəraitinə və iqlim dəyişikliyinin fiziki təsirlərinə həssaslığına, həmçinin istixana qazı emissiyalarına verdiyi töhfələrə görə iqlim dəyişikliyinin təsirinə məruz qalan əsas sahələrdəndir. Buna görə də, ASCO BDT-nin Strategiyasına və 2015-ci il Paris Sazişinin məqsədlərinə uyğun olaraq, öz biznes modellərini və əməliyyatlarını aşağı karbonlu və iqlimə davamlı yollarla həyata keçirmək üçün tədbirlər görür. ASCO iqlim dəyişikliyinin proqnozlaşdırılan təsirlərinə həssas olan Xəzər dənizi regionunda biznes əməliyyatları apardığı üçün (məsələn, əhəmiyyətli gəlirləri neft və qaz sektorundan asılı olan əməliyyatlardan gəlir) bu tədbirlər şirkətin prioritetləri sırasındadır.

ASCO davamlılıq da daxil olmaqla, daxili korporativ idarəetmə sistemini təkmilləşdirməkdə maraqlıdır və buna görə də korporativ idarəetmə və iqlimlə bağlı fəaliyyət üçün risklərin qiymətləndirilməsi sahəsində tədbirlər görməkdədir.

1 fevral 2024-cü il tarixində “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC (ASCO), “Azərbaycan İnvestisiya Holdinqi” (AİH) və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında dövlət zəmanəti olmadan 2 ədəd “Handysize” tipli quru yük gəmisinin alışının maliyyələşməsi üzrə kredit müqaviləsi imzalanmışdır. Kredit müqaviləsində AYİB tərəfindən ASCO üzrə icrası və riayət edilməsi tələb olunan şərtlər və məhdudiyyətlər (kovenantlar) təyin edilmişdir. Həmçinin, müqaviləyə əsasən İqlim ilə əlaqəli korporativ idarəetmə Layihəsi (CCG) icra olunmaqdadır, layihə üzrə məsləhətçi xidməti Ernst&Young (EY) şirkəti təqdim edir.

CCG layihəsi ASCO-ya korporativ iqlim idarəçiliyi fəaliyyət planlarının hazırlanmasına, şirkətin fəaliyyətinin Paris Sazişinin hədəflərinə uyğunlaşdırılmasına dəstək göstərir. Eyni zamanda, layihə Davamlılıqla Əlaqəli Maliyyələşdirmə Çərçivəsinin (SLFF) hazırlanmasını nəzərdə tutur ki, bu da ASCO-nun davamlılıqla əlaqəli kreditlər (SLL) və davamlılıqla əlaqəli istiqrazlar (SLB) əldə etməsinə imkan yaradacaq.

Layihə çərçivəsində iqlimlə bağlı tələblərin ASCO-nun fəaliyyətinə mümkün təsirləri, eləcə də iqlim riskləri və imkanları araşdırılıb. Həmçinin iqlimlə əlaqəli idarəetmə tədbirləri, davamlı maliyyələşdirmə üzrə yol xəritəsinə dair ətraflı məlumat toplanılıb. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (IFRS) S1 (Davamlılıqla əlaqədar Maliyyə Məlumatlarının Açıqlanması) və S2 (İqlimlə bağlı Açıqlamalar) standartlarının tələblərinin gələcəkdə ASCO da tətbiqi öyrənilib.

AYİB CCG təsisini yaradan ilk beynəlxalq maliyyə qurumudur. Bu layihə iqlim dəyişikliyinin təsirləri ilə bağlı qərar qəbuletmə, bu istiqamətdə məlumatların açıqlanması, idarəetmənin təkmilləşdirilməsi üçün AYİB-in tətbiq etdiyi qaydalar, təcrübələr və proseslər toplusudur.